# Uğurlu yekunlar yeni inkişafa zəmin yaradır

***Qəbələ Rayon Statistika İdarəsi 2014-cü il ərzində rayonun sosial-iqtisadi inkişafının kompleks təhlili barədə məlumatında açıqlama verir ki, ötən illərdə ollduğu kimi rayonumuz yenə də öncüllər sırasındadır.***

2014-cü ildə də Qəbələ rayonunda yüksək sosial-iqtisadi inkişaf tempi saxlanılmış, yeni-yeni uğurlar qazanılmışdır. İqtisadiyyatın sənaye, kənd təsərrüfatı və sosial sahələrində bütün qarşıda duran vəzifələr uğurla həyata keçirilmişdir. Rayonda yeni və müasir tələblərə cavab verən asfalt yollar salınmış, turizmi inkişaf etdirmək məqsədilə çoxlu sayda yeni istirahət mərkəzləri tikilib istifadəyə verilmiş və bu istiqamətdə hazırda da işlər davam etdirilir.

Ötən il iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə bütövlükdə rayonda 239 milyon 304 min manatlıq məhsul istehsal edilmişdir. Bu da 2013-cü ildəkinə nisbətən 4 milyon 414 min manat və yaxud 1,8 faiz çoxdur. Ayrfı-ayrı sahələrə gəldikdə sənayedə 22 milyon 828 min manatlıq (əvvəlki illə müqayisədə artım 7,5 faiz), kənd təsərrüfatında 57 milyon 924 min manatlıq (əvvəlki ilə görə artım 3,7 faiz) məhsul istehsal olunmuşdur. Tikinti sahəsində də 2013-cü ilə nisbətən 65 min manatlıq çox iş görülmüş və tikinti-quraşdırma işlərinin həcmi 127 milyon 580 min manata çatdırılmışdır. Nəqliyyat sahəsində əhaliyə 3 milyon 342 min manatlıq (əvvəlki illə müqayisədə artım 3,1 faiz) rabitə üzrə 1 milyon 44 min manatlıq (artım 14,2 faiz), ticarət xidməti üzrə 26 milyon 639 min manatlıq (artım 1,8 faiz) xidmət göstərilmişdir. Adambaşına ümumi məhsul buraxılışı 4 manat artaraq 2356 manat olmuşdur.

Rayonda kənd təsərrüfatı sahəsində taxılçılıq, meyvəçilik, heyvandarlıq məhsullarının istehsalı əsas yer tutur. Bunlarla yanaşı rayonda bostan-tərəvəz, üzüm və kartof da istehsal edilir. Ötən ilin taxılı üçün 25.030 hektar sahədə taxıl əkilmişdir. Lakin havaların əlverişsiz keçməsi üzündən 4.678 hektarda biçin aparılmamışdır. Biçilmiş sahələrin hər hektarından 19,1 sentner taxıl əldə edilmiş, ümumi məhsul yığımı 40.715 ton olmuşdur. Ötən il əvvəlki ilə nisbətən taxıl istehsalında azalma yaransa da, bostan-tərəvəz istehsalında irəliləmələr müşahidə edilmişdir. Məsələn, tərəvəz məhsulları istehsalı 65 ton artaraq 9.495 tona, kartof istehsalı 415 ton artaraq 7.497 tona, günəbaxan istehsalı 24 ton artaraq 114 tona, meyvə istehsalı 15 ton artaraq 14.115 tona çatdırılmışdır.

Heyvandarlığın inkişafında azalma müşahidə olunsa da məhsul istehsalında xeyli irəliləyişlər vardır. Məsələn, iribuynuzlu mal-qaranın inkişafında 7.471 baş (faktiki 48303 baş) qoyun və keçilərin inkişafında 174 baş (faktiki 218617 baş) azalma olsa da ət istehsalı 265 ton artaraq 6.885 ton, süd istehsalı 2.255 ton artaraq 37.385 ton, yun istehsalı 6 ton artaraq 487 ton olmuşdur. Quşların və donuzların inkişafı da artmış, müvafiq surətldə 350.123 başdan 379.815 başa və 1020 başdan 1.037 başa, yumurta istehsalı isə 37 min ədəd artaraq 10 milyon 387 min ədədə çatmışdır.

Sənaye məhsulları istehsalına gəldikdə istehsal olunan 22.828 min manatlıq məhsulun 14.052 min manatlığını meyvə şirələri istehsalı təşkil etmişdir. Ötən il sənaye müəssisələrində çalışan 851 nəfərin orta aylıq nominal əməkhaqqı 404 manat olmuş və əvvəlki illə müqayisədə 13 faiz artmışdır.

Ötən il əsas kapitala yönəldilmiş investisiyanın həcmi 131 milyon 223 min manat təşkil etmişdir. Bu, 2013-cü illə müqayisədə 1 milyon 800 min manat, yaxud 1,3 faiz çoxdur. Son bir il ərzində ümumi sahəsi 36.295 kvadratmetr olan 304 fərdi yaşayış evi tikilib istifadəyə verilmişdir. Ümumilikdə, həmin evlərin dəyəri 17 milyon 109 min manat olmuşdur.

2014-cü ildə Qəbələdəki «Tufandağ» Yay-qış İstirahət Kompleksinin birinci mərhələsinin tikintisi başa çatmış, ikinci mərhələnin tikintisi davam etdirilir. Qəbələ Uşaq Futbol Akademiyasının inzibati binasının və Qəbələ Qolf klubunun tikintisinə başlanmışdır.

Rayonda mədəniyyət və turizm, təhsil və səhiyyə sahələrində inkişaf davam etdirilmişdir. 2015-ci il yanvar ayının 1-nə mədəniyyət mərkəzi, bir mədəniyyət evi, 26 kitabxana, bir xalq teatrı, 31 klub, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərir, 93 mədəniyyət abidəsi və 1 dövlət qoruğu vardır. Abidələrin 61-i dövlət əhəmiyyətlidir. 2003-cü ildən sonra turizm obyektlərinin sayı 3-dən 15-ə çatdırılmış, yerlərin sayı isə 623 olmaqla 6 dəfə artmışdır. Hazırda 15 min yerlik futbol stadionunun tikintisi üçün yer ayrılıb, «Ratfinq» mərkəzində və Goid Resort idman və istirahət mərkəzində tikinti işləri başlanılmışdır.

Rayonda 4 ibtidai, 11 əsas, 53 orta məktəb fəaliyyət göstərir. Bu məktəblərdə 16.038 nəfər şagird təhsil alır. Müəllimlərin sayı isə 2330 nəfərdir. 22 məktəbəqədər uşaq müəssisəsində 780 nəfər uşaq müxtəlif dərnəklərdə məşğul olur. Peşə təhsili müəssisəsində isə 8 ixtisas üzrə 408 nəfər müxtəlif peşələrə yiyələnir.

Səhiyyə sahəsində 6 xəstəxana, bu xəstəxanalarda 330 çarpayı vardır. Rayonda 36 tibb və feldşer mama məntəqəsi, 9 ambulator-poliklinika fəaliyyət göstərir. Bu müəssisələrdə 178 həkim, 461 orta tibb işçisi çalışır.

Ötən il avtomobil nəqliyyatı ilə 1 milyon 86 min ton, əvvəlki illə müqayisədə 38 min və ya 3,6 faiz çox yük daşınmışdır. Daşınan sərnişinlərin sayı 7 milyon 511 min nəfər olmuşdur.

2014-cü ildə parakəndə əmtəə dövriyyəsinin ümumi həcmi 114 milyon 434 min manata çatmış, əvvəlki illə müqayisədə 5 faiz artmışdır. İaşə dövriyyəsinin xüsusi çəkisi isə 5,3 faiz artaraq 6 milyon 134 min manat təşkil etmişdir.

Əhalinin əmək və məşğulluq mərkəzində 620 nəfər işsiz vətəndaş qeydiyyata alınmışdır. Onlardan 325 nəfəri müxtəlif peşələr üzrə işə düzəldilmişdir. Məşğul əhalinin 9319 nəfəri muzdla işləyənlərdir. Onların 6330 nəfəri, yaxud 68 faizi dövlət mülkiyyətində, 2979 nəfəri və ya 32 faizi isə qeyri-dövlət mülkiyyətində fəaliyyət göstərir.

Məşğul əhalinin 81 faizi və ya 41305 nəfəri muzdsuz işləyənlərdir. Muzdsuz işləyənlərin 34696 nəfəri, faxud 84 faizi kəndli təsərrüfatlarında çalışır.

2003-cü ilin oktyabr ayının 1-dən 2015-ci ilin yanvar ayının 1-dək rayonda 12696 yeni iş yeri açılmışdır. Açılan iş yerlərinin 10.648-i daimi iş yeridir.

2014-cü ildə 893 yeni iş yeri açılmışdır. Bu iş yerlərinin hamısı daimi itş yeridir.

1 yanvar 2015-ci il tarixə rayon ərazisi 1550 kvadratkilometr, əhalisinin sayı 101.549 nəfər olmuşdur. Əhalinin sıxlığı hər kvadratkilometrə 64,4 nəfərdir. Rayonda 1 şəhər, 3 qəsəbə, 60 kənd yaşayış məntəqəsi vardır.

Rayon ərazisində 1 şəhər, 3 qəsəbə 56 kənd inzibati ərazi nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir. Məcburi köçkün ailələrinin sayı 655-dir. Bu ailələr üzrə üzvlərin sayı isə 2.259 nəfərdir.

Ötən il rayonda 1.962 nəfər körpə doğulmuş, 623 nəfər ölən qeydə alınmışdır. Vəfat edənlərin 3 nəfəri 1 yaşa qədər olmuşdur. Cəmi 943 nigah və 88 boşanma qeydə alınmışdır, Nigahların sayı 69 nəfər azalmış, boşananların sayı isə 5 nəfər artmışdır.

**Rayon Statistika İdarəsi.**

# Bələdiyyə şuralarının üzvləri ilə görüş keçirilmişdir

10 saylı Ərazi Vergilər İdarəsində "Vergi dostları" və rayonun bələdiyyə şu-



ralarının üzvləri ilə görüş keçirilmişdir.

Tədbiri giriş sözü ilə idarə rəisinin müavini Elbrus Abdullayev açmışdır. Sonra "Vergi dostları" şəbəkəsinin ilkin fəaliyyətinin nəticələri barədə rayon təhsil şöbəsinin metodisti Camal Qurbanov məruzə etmişdir. Azərbaycan Respublikasının vergi məcəlləsinə edilmiş əlavə və dəyişikliklər, eləcə də "Yerli vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması", "Yerli vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu" ilə bağlı metodiki göstərişlərin tətbiqi, yerli vergilərin ödəyiciləri olan şəxslərin məlumatlandırılması prosesinə "vergi dostları"nın cəlb edilməsmi barədə 10 saylı Ərazi Vergilər İdarəsinin şöbə rəisi İntiqam Hidayətzadə məlumat vermişdir.

Mövzu ətrafında tədbir iştirakçıları ilə geniş diskussiya aparılmışdır.

***2015-ci il «Kənd təsərrüfatı ili»dir***

# Məhsul istehsalı artır

Qəbələ taxılçıları 2015-ci ilin məhsulu üçün 21.300 hektar sahədə payızlıq bitkilər əkmişlər. Onun 14.055 hektarını buğda, qalanını isə arpa əkini sahələri təşkil edir. Taxıl əkinində Bayramkoxalı, Kürd, Əmirvan, Zalam kəndlərinin, Nic qəsəbəsinin və «Cilan» MMC-nin taxılçıları xüsusilə fərqlənmişlər. Sözügedən təsərrüfatlar taxıl səpinini optimal müddətdə başa çatdırmaqla yanaşı, nəzərdə tutulduğundan xeyli çox sahələrə toxum səpmişlər. Fermerlər və torpaq mülkiyyətçiləri əkin sahələrinin məhsuldarlığını artırmaq üçün becərmə işlərinə və ziyanvericilərdən mühafizə olunmasına da xüsusi əhəmiyyət verirlər. Belə ki, havaların quraq keçdiyi günlərdə əkin sahələrində gəmiricilərə və ziyanvericilərə qarşı mübarizə tədbirləri görülmüşdür. Əkin sahələrində ziyanvericilərə qarşı mübarizə tədbirləri davam etdirilir.

Heyvandarlıq rayonun iqtisadiyyatında mühüm yer tutur. Bu sahə dövlətin qayğısı sayəsində ilbəil inkişaf edir, heyvandarlıq məhsullarının istehsal tempi yüksəlir. Əvvəlki ilin müvafiq dövru ilə müqayisəyə görə cari ilin 1 yanvar tarixinə ət istehsalı 265 ton, süd istehsalı 2.255 ton, yumurta istehsalı 10.387 min ədəd və yun istehsalı 6 ton artmışdır.

Rayonda iribuynuzlu mal-qaranın say artımında da irəliləyiş var. Hazırda rayon üzrə 48.303 baş iribuynuzlu mal, 218.617 baş xırdabuynuzlu qoyun və keçilər, 1037 baş donuzlar və 350.214 baş isə quşlar bəslənilir. Mal-qaranın, qoyun və keçilərin baş sayının artırılmasında, Laza, Qəmərvan, Yeni Dizaxlı, Əmirvan, Kürd, Bayramkoxalı, Yenikənd, Zalam kəndlərinin heyvandarları irəlidə gedirlər. Bütövlükdə rayonumuzun fermerləri və torpaq sahibkarları ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən 2015-ci ilin respublikamızda «Kənd təsərrüfatı ili» elan etməsini ürəkdən alqışlayır və kənd təsərrüfatının dinamik inkişafı üçün mühüm tədbirlər həyata keçirirlər. Yeni ilin ilk aylarından bu istiqamətdə görülən işlər sürətləndirilib.

**«Qəbələ».**